# Əvəzolunmaz ekran sərvətlərimiz



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tabeçiliyində Dövlət Film Fondu yaradılmışdır. Burada milli kino əsərləri ilə yanaşı, xarici ölkələrdə istehsal olunmuş film surətləri də qorunaraq saxlanılır. Əvvəllər Naxçıvan kinoprokat idarəsi kimi tanınan müəssisə 2000-ci ildən fəaliyyətini təkmilləşdirməklə Azərbaycan Dövlət Film Fondunun filialına çevrilmişdir. Filialın işində ciddi dönüş yaradıldığından, 26 dekabr 2005-ci il tarixli sərəncamla arxiv idarəsi statusunu qazanmışdır.*

Naxçıvan MR Ali Məclisi sədrinin kino incəsənətinə qayğısı sayəsində müəssisə, müstəqil Naxçıvan Dövlət Film Fondu olmuşdur. Müəssisənin aparıcı rəhbəri Azərbaycanın əməkdar mədəniyyət işçisi Əbülfəz Məmmədovla söhbətdən məlum oldu ki, Film Fondunu Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi tabeliyinə keçirməklə, buradakı maddi-texniki bazanın inkişafına zəmanət yaradılmışdır.

Naxçıvan Dövlət Film Fondunda 4018 adda müxtəlif ölçülü kinolentlər saxlanılır. Burada Azərbaycanfilm kinostudiyasında yaradılmış 61 adda bədii (rusca-azərbaycanca) ekran əsərləri vardır. Bununla yanaşı Azərbaycan kinematoqrafçılarının müxtəlif illərdə çəkdirdikləri elmi-kütləvi və xronikal-sənədli filmlərin sayı 265 nüsxəyə çatdırılmışdır.

**K i n o**

Azərbaycan kino sənəti tarixində 1993-cü ildən başlayan cizgi filmləri də Film Fondunun arxivində saxlanılır. Burada uşaq və böyüklər üçün 42 adda film surətləri vardır.

Film Fondunun arxivində habelə xarici ölkələrdə çəkilmiş bədii və sənədli ekran əsərləri qorunaraq saxlanılır. Onların arasında 1465 adda bədii (o cümlədən də, dublyaj olunmuş 367) film vardır.

Bundan başqa 83 sayda qısa metrajlı, 288 sayda sənədli-xronikal, 410 sayda elmi-kütləvi və 1050 sayda isə cizgi filmləri mühafizə olunurlar.

Film Fondun arxiv rəflərində qorunub saxlanılan lentlər 35 mm-lik adi və geniş formatlı, fotoqrafik səs fonoqram perforasiyalıdırlar. Bununla yanaşı arxivin digər şöbələrində 16 mm-lik (dar lentli) fotoqrafik və ferromaqnit səs perforasiyalı kinolentləri də saxlanılır.

Əvvəllər Film Fondda dar lentli iki yüzdən artıq sayda 600 metrlik metal bobinlərə sarınmış vəziyyətdə bədii filmlər də saxlanılırdı. Doxsanıncı illərdə Azərbaycan Müdafiə Nazirliyinin sərəncamı ilə həmin filmlər Naxçıvan Hərbi qarnizonunun Zabitlər evinə köçürülmüşdür. Sonradan isə həmin filmlər Bakı şəhərindəki Zabitlər evinə göndərilmişdir.

Film Fondda haliyədə 60 sayda dar enli sənədli və 406 sayda isə elmi-kütləvi filmlər saxlanılır. Burada saxlanılan kinofilmlər surətləri polietilen torbaya bükülmüş halda metal qablardadır.

Film saxlanılan otaqlarda yanğına qarşı təhlükəsizlik tədbirləri görülərək yüksək texniki qaydalara əməl olunmaqla xüsusi avadanlıqlar quraşdırılmışdır. Saxlanılan film surətləri vaxtaşırı texniki nəzarətdən keçirilərək otaqlarda müvafiq temperaturla nəmişlik əmsalına riayət olunur. Filmlərə texniki nəzarət edən mütəxəssis Rəna Fərayevadır. O, buradakı yarımavtomat "KMZ" markalı lent sarıyan dəzgahda filmlərin düzgün rakordlarına nəzarət edir. Korlanmış lentlər defektoskopla təyin edilərək "NSPA" markalı film presləri ilə bərpa olunur. Bundan başqa Fondun sexlərində xüsusi "45.P-8" markalı dəzgah vardır ki, onunla tamam yararsız film surətləri kompleks şəklində yoxlanılaraq işlək vəziyyətinə gətirilir.

Film Fondun kino mühəndisi bacarıqlı mütəxəssis Nazim Rzayevdir. Onun təklifləri ilə burada əmək texnologiyası sadələşdirilmiş və səmərəli istehsalat səviyyəsi yüksəldilmişdir. Naxçıvan Film Fondda veteran işçilərdən sayılan kinomexanik Abbas Novruzovun adı hörmətlə çəkilir. O, 1961-ci ildə Bakı şəhərindəki 5№-li texniki peşə məktəbini (orada kino kadrları hazırlanırdı) bitirmiş və 45 ildir ki, ixtisası üzrə işləməkdədir. Bacarıqlı kinomexanik A.Novruzov hələ Sovetlər İttifaqı dövründə indiki Sankt-Peterburq şəhərindəki Kino Mühəndisləri İnstitutunda altı aylıq təkmilləşdirmə kursunu da bitirmişdir. Səmərəli iş fəaliyyəti nəzərə alınmaqla ona dəfələrlə Azərbaycan Kinematoqrafçıları İttifaqı və Mədəniyyət Nazirliyinin Fəxri Diplomları verilmişdir.

İşgüzar və peşəsinin vurğunu olan Abbas Novruzova 1963-cü ildə yüksək mükafat kimi SSRİ-nin əlaçı kinomexaniki fəxri adı verilmişdir.

Naxçıvan Dövlət Film Fondunda film surətləri saxlanmaqla yanaşı Azərbaycan kino tarixini xalqa çatdırmaq məqsədilə təşviqat işlərinə də fikir verilmişdir. Film Fondun dəhlizlərində divardan asılmış "Azərbaycan kinosu 100 ildə", "Mükafatlandırılmış filmlərimiz", "Kino sənətkarlarımız", "Diqqət, film çəkilir!" və s. adda fotostendlərə rast gəlinir.

Film Fondda ictimai əsaslarla yaradılmış kitabxana və kino muzeyi daha maraqlıdır. Minə yaxın sayda toplanmış müxtəlif bədii-texniki kitablarla yanaşı əvvəlki illərdə çəkilmiş

Azərbaycan filmlərinin ssenariləri, texniki film pasportları, kataloq və kino xəbərləri məcmuələri də saxlanılır. Kitabxanada milli kinomuzla yanaşı xarici ölkə filmlərinin (o cümlədən də, tədris filmlərinin) məlumat kataloqlarına da rast gəlmək olar. Maraqlısı odur ki, kitabxana fonduna kinoşünaslarla yanaşı naxçıvanlı bədii söz ustalarının da çapdan çıxmış kitabları avtoqraf imzaları ilə hədiyyə edilmişdir.

Azərbaycanda yeganə sayılan Kinoincəsənəti muzeyi Naxçıvan Dövlət Film Fonduna gələnlərin marağına səbəb olmuşdur. Muzeydə əvvəlki illərdə milli kinomuzun çəkilişlərində aktyorlar tərəfindən istifadə olunmuş geyimlər, müxtəlif dövrlərin silahları, məişət əşyaları, rekvizitlər və sairə saxlanılır.

Muzeydə texniki əşyalarla birlikdə film istismarında istifadə olunan müxtəlif markalı kinokameralar, işıqlandırıcı və səsləndirici ləvazimatlar, müxtəlif tipli kinoproyektorlar, film surətlərinin nümunələri və sairə qoyulmuşdur.

Bundan başqa burada naxçıvanlı tanınmış qələm ustaları ilə görüşlər təşkil olunmaqla, onların ədəbi irsi açıqlanılmaqla, ümummilli liderimiz H.Əliyevin həyatına həsr olunmuş sənədli filmlərə baxırlar. Tədbirlərə gələnlər unudulmaz kino sənətkarlarının həyat-yaradıcılığı ilə yaxından tanış olurlar. Onlar ekran vasitəsilə Ü.Hacıbəyov, C.Cabbarlı, M.Əliyev, M.Sənani, H.Ziya, A.İsgəndərov, L.Bədirbəyli, B.Şəkinskaya, Ə.Ələkbərov, A.Ağayev, B. Səfəroğlu, L.Abdullayev, N.Məlikova, N.Zeynalova və başqaları ilə yaxından tanış olurlar. Naxçıvan Dövlət Film Fondunda ictimai əsaslarla videofilm arxivi də yaradılmışdır. Buradakı videofilm kassetləri əvvəllər fəaliyyət göstərmiş Azərbaycan Kino-Video Birliyində hazırlanaraq Dövlət Film Fondundakı nümunələrindən köçürülmüşdür. Haliyədə Naxçıvan Dövlət Film Fonddakı video kassetlərindən bir çox təşkilatlar faydalanırlar. Naxçıvandakı televiziya studiyaları, "Gənclər Mərkəzi" kinoteatrı, Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyinin Elmi-Metodik Mərkəzi, H.Əliyev adına Hərbi litsey, Hərbi Qarnizonun Zabitlər Evi, Naxçıvan MR Təhsil Nazirliyinin məktəbdənkənar müəssisələri istifadə edirlər.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tabeliyində 226 klub-müəssisə vardır. Klubların əksəriyyətində daimi kinoqurğuları fəaliyyətsiz surətdə avadanlıqları ilə birlikdə qalmaqdadır. Çox yaxşı olardı ki, klubların səlahiyyətli işçiləri Naxçıvan Dövlət Film Fondunun xidmətindən istifadə etməklə bədii və sənədli filmlərdən faydalansınlar.

Naxçıvan MR Təhsil Nazirliyinin rayon mərkəzlərindəki şöbələri nəzdində uzun illərdir ki, Tədris Filmoteka Fondları fəaliyyətsiz surətdə qalmışdır.

Ölkəmiz müstəqilliyə çıxdıqdan sonra tədris prosesindəki bir çox dərslik proqramları dəyişilmişdir. Əvvəllər tədris filmotekalarında ixtisas müəllimləri proqrama uyğun film surətlərini tədris prosesində istifadə edirdilər.

Rayon filmotekalarında minlərlə nüsxə dar lentli tədris filmləri (o cümlədən də, dublyaj olunmuş), ekran vəsaitləri istifadəsiz qalmaqdadır. Yaxşı olardı ki, həmin "istifadəsiz" film surətləri xalqımızın milli sərvəti kimi Naxçıvan Dövlət Film Fondunun ixtiyarına verilərdi.

Məktəblərin sinif otaqlarında dar lentli tədris filmlərini nümayiş etdirmək, kinoaparatlara lazımi ehtiyat hissələrin olmaması səbəbindən bir çox çətinliklər yaranmışdır. Buna baxmayaraq tədris prosesində videokasset və DVD disklərindən də istifadə etməklə təlim üsullarından səmərəli dərslər aparmaq olar. Naxçıvan Dövlət Film Fondunda kino lentləri videokassetlərinə köçürmək üçün avadanlıqlar quraşdırılmışdır. Bunun üçün Film Fondda ixtisaslı kadrlarla dövlət maliyyə vəsaitlərinə də ehtiyac duyulur.



Yetmiş, səksəninci illərdə nəinki Bakı şəhərində, o cümlədən də Naxçıvandakı xalq yaradıcılığı üzrə Elmi-Metodik Mərkəzlə, Həmkarlar təşkilatları ilə birlikdə, həvəskar kinostudiyaların çəkdikləri səssiz dar lentli filmlərə baxış müsabiqələri keçirilmişdir. Həmin tədbirlərə kinemotoqrafiya işçiləri ilə birlikdə ictimai təşkilatların nümayəndələri cəlb olunardı. Müsabiqədə fərqlənən studiya (dərnək) kollektivi rəhbərlərinə həvəsləndirici diplom təqdim edilərdi. Bütün bu kimi mədəni-kütləvi tədbirlər, gənclərin kino sənətinə marağını artırmaqla mədəniyyətimizə uğurlar gətirməkdə idi.

Çox yaxşı olardı ki, "unudulmuş" ənənələr davam etdirilməklə həvəskar kino-video film surətləri də Naxçıvan Dövlət Film Fondunun arxivində saxlanılsın.

Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı rayon mərkəzlərindəki kinoteatr binaları əsaslı təmir edilərək, müasir avadanlıqlarla təchiz edilmişdir.

***Naxçıvandakı "Gənclik Mərkəzi" kinoteatrında demək olar ki, hər gün bədii və sənədli filmlər nümayiş olunur. Burada vaxtaşırı Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman Nazirliyinin kütləvi tədbirləri keçirilməklə sənədli, elmi-kütləvi və xronikal filmlərə də baxışlar keçirilir. Mədəni-kütləvi tədbirlərdə H.Əliyevin həyat-fəaliyyətini öyrənmək məqsədilə kinolektoriyalar gənclərin marağına səbəb olmuşdur.***

**Feyruz Bağırov,**
***Naxçıvan MR mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin şöbə müdiri***